# BİLƏSUVAR: BÜTÜN QÜVVƏLƏR DAVAMLI İNKİŞAFA YÖNƏLDİLMİŞDİR

Respublikamızın Aran bölgəsində yerləşən tarixlər şahidi Biləsuvar rayonunun insanları həmişə olduğu kimi, 2015-ci ilin 9 ayında da yaxşı işləmişlər. Hər kəs aydın görür ki, son illərdə ulu öndər Heydər Əliyevin uzaqgörən və müdrik siyasətinin bəhrəsi olan mükəmməl strateji kursun dönmədən davam etdirilməsi sayəsində adamların həyat səviyyəsi xeyli yüksəlmişdir. Rayon icra hakimiyyətinin 2015-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş yığıncağında geniş fikir mübadiləsi aparıldı, görülmüş işlərə qiymət verildi, qarşıda duran vəzifələr müəyyənləşdirildi. Rayon icra hakimiyyətinin başçısı Mahir Quliyev məruzə ilə çıxış etdi. Məruzə ətrafında müzakirələr oldu.



Qeyd olundu ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş geniş iclasında ölkənin yüksək templərlə inkişafı bir daha real və aydın faktlarla göstərilmiş, iqtisadi və sosial həyatda nadir göstəricilərin olduğu qeyd edilmişdir. Ölkə başçısı iclasdakı nitqlərində bu istiqamətdə atılmış addımları yüksək qiymətləndirmiş, möhtəşəm layihələrin əzmlə gerçəkləşdirildiyini, infrastruktur quruculuğun geniş vüsət aldığını, əhalinin ehtiyaclarının getdikcə daha dolğun ödənildiyini qeyd etmişdir. 2015-ci ilin doqquz ayında respublikada yüksək quruculuq əhval-ruhiyyəsi hökm sürmüşdür.

Ölkənin hər yerində olduğu kimi, Biləsuvar rayonunda da 2015-ci ilin ötən dövrü bir sıra uğurlarla müşayiət olunmuşdur. Dövlət proqramlarının yerinə yetirilməsi, iqtisadi inkişafın sürətləndirilməsi, tikinti-abadlıq işlərinin görülməsi və əhalinin sosial problemlərinin həlli sahəsində məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Prezident İlham Əliyevin yeni-yeni təşəbbüsləri adamların coşqun əhval-ruhiyyəsini şərtləndirən amil olmuşdur. Dövlət başçısının buraya müntəzəm səfər etməsi, insanlarla görüşüb rayonun iqtisadi və sosial həyatındakı yeniliklərlə tanış olması və adamların gərgin zəhmətinə, bu zəhmətin nəticələrinə yüksək qiymət verməsi əsas cəhətlərdir.

2015-ci ilin 9 ayında rayon üzrə ümumi məhsul buraxılışının həcmi 190,2 milyon manat olmuşdur ki, bu da əvvəlki ildəkinə nisbətən 6,5 faiz çoxdur. Ümumi məhsul buraxılışının həcmində kənd təsərrüfatının payı 107,5 milyon, ticarətdə 54,3 milyon, tikintidə 12,1 milyon, sənayedə 14,0 milyon, nəqliyyatda 2 milyon, rabitədə 0,3 milyon manat olmuşdur. Bu dövrdə əsas kapitala yönəldilən investisiyalar 12,6 milyon manat, pərakəndə əmtəə dövriyyəsi 148,9 milyon manat təşkil etmişdir.

Rayonda tikinti-abadlıq işləri genişlənməkdədir. Son vaxtlar ərzində burada tikinti-abadlıq və quruculuq işlərinə çoxlu vəsait sərf olunmuşdur. Doqquz ayda isə tikinti təşkilatlarının yerinə yetirdikləri podrat işlərinin həcmi əvvəlki illərdəkindən daha artıq olmuşdur. 2 hektar sahəsi olan Heydər Əliyev parkında abadlıq işləri davam etdirilmiş, şəhərdə 100 və 200 yerlik 2 uşaq bağçası tikilib istifadəyə verilmişdir. Əhalinin sosial rifahının yaxşılaşması və pul gəlirlərinin artması sayəsində 112 fərdi ev tikilmişdir.

Şəhərin M. İbrahimov, Nizami Gəncəvi, Səməd Vurğun küçələrində abadlıq və asfaltlaşdırma işləri həyata keçirilmişdir. Kommunal evlərin su təchizatına xüsusi diqqət yetirilmiş, şəhərin su təchizatı sistemi yenidən qurulmuş, su anbarları və kanalizasiya xətləri təmizlənmiş, nasosxanaların fasiləsiz işi nizama salınmış, elektrik mühərrikləri təmir edilmişdir. Kənd təsərrüfatı məhsullarının yetişdirilməsi və saxlanılması üçün istixanaların və kameraların şəbəkəsi genişləndirilmişdir. Rayon mərkəzində minlərlə bəzək ağacı və gül kolları əkilmişdir. Bir çox digər yaşayış məntəqələrində abadlıq və yenidənqurma işlərinin səviyyəsi daha yüksək və gözəgəlimli olmuşdur. İndi Xırmandalı kəndində bağça binasının, DSMF rayon şöbəsinin, kənd təsərrüfatı idarəsinin binalarının, Səmədabad kəndində Heydər Əliyev parkının inşasında son tamamlama işləri aparılır.



Bu il yol tikintisinə xüsusi önəm verilmişdir. Prezident İlham Əliyevin sərəncamına əsasən 16 kilometrlik Günəşli-Əliabad yolunun inşası başa çatdırılmışdır, Əsgərabad-Çaylı yolunun salınması davam etdirilir. Ələt-Astara magistralının rayon ərazisindən keçən hissəsində təmir işləri aparılmışdır. Ərazilərdə yaşıllıq zolaqlarının salınması, avtomobil yolunun genişləndirilməsi, yol kənarlarında səkilərin inşa edilməsi, müasir işıqlandırma sisteminin quraşdırılması sakinlərin ürəyindən olmuşdur.

Ardıcıl olaraq göstərilən dövlət qayğısı aqrar sahənin inkişafına təkan vermiş, bu sahədə çalışanlara əlverişli mühit yaratmışdır. Taxılçılıq, pambıqçılıq və heyvandarlıq aparıcı sahələr hesab edilir. Son vaxtlar fermer təsərrüfatlarına ayrılan maliyyə yardımları ərzaq təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynamışdır. İlin ötən dövrü ərzində kənd təsərrüfatı üzrə ümumi daxili məhsulun həcmi xeyli artmış, əvvəlki ildəkinə nisbətən 14 faiz çoxalmışdır. 2015-ci ilin “Kənd təsərrüfatı ili” elan olunması, Respublika Prezidentinin “Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında” Sərəncamına əsasən əkin sahələrinin becərilməsində istifadə olunan yanacaq və mühərrik yağlarını əldə etməkdən ötrü mülkiyyətçilərə kifayət qədər yardım verilməsi istehsalın stimullaşdırılmasında böyük rol oynamışdır. Taxılçılıq təsərrüfatlarına güzəştli şərtlərlə yüksək reproduksiyalı toxum satılmışdır. Nəticədə fermerlər tərəfindən nəzərdə tutulduğundan xeyli çox taxıl, pambıq, tərəvəz, kartof, qarğıdalı, günəbaxan, bostan məhsulları əldə edilmişdir.

Təsərrüfatlarda bəslənilən iri və xırdabuynuzlu heyvanların baş sayı artmış, heyvandarlıq məhsulları istehsalının həcmi çoxalmışdır. Bazarlara çıxarılan kənd təsərrüfatı məhsullarının miqdarı artmış, nəticədə fermerlərin və fiziki şəxslərin gəlirləri yüksəlmişdir.

Son vaxtlar rayonda “Aqrolizinq” ASC-nin aqroservis xidməti normal fəaliyyət göstərir, xeyli yeni texnika gətirilərək qüvvətli baza yaradılmışdır, fermerlər və fiziki şəxslər bu xidmətdən yetərincə istifadə edə bilirlər. Torpaq mülkiyyətçilərinə istənilən qədər mineral gübrə verilmiş, müəssisənin bilavasitə köməyi ilə sahələrdə alaq otlarına qarşı mübarizə işi təşkil edilmişdir. Suvarma işini mütəşəkkilliklə keçirmək üçün təsərrüfatdaxili və təsərrüfatlararası kanallar lildən təmizlənmiş, suvarma qurğuları əsaslı təmir edilmişdir. Torpaqların meliorativ cəhətdən yaxşılaşdırılması məqsədilə kollektor-drenaj sistemi təmizlənmişdir. Hazırda Mərkəzi Muğan kollektorlar istismarı idarəsi tərəfindən kəndlərdə yerləşən suvarma kanallarında lildəntəmizləmə işləri davam etdirilir.

Yaşayış məntəqələrinin sosial-iqtisadi yüksəlişində, insanların yaşayış səviyyəsinin yüksəldilməsində özəl bölmənin rolu mühümdür. Rayon iqtisadiyyatında məşğul olanların sayı 65 min nəfəri ötüb keçmişdir ki, bunların 55 min nəfərindən çoxu özəl bölmədə çalışır. 90 sahibkara 1 milyon 25 min manat məbləğində güzəştli kreditlər verilmişdir. Müasir sənaye məhəllələrinin yaradılması, burada yeni istehsal və emal obyektlərinin açılması məqsədilə 10 hektar ərazi ayrılmışdır. Görülmüş işlər nəticəsində 878 yeni iş yeri açılmışdır. Son vaxtlar sahibkarlıq obyektlərində aparılan əsassız yoxlamaların ləğvi üçün təsirli tədbirlər həyata keçirilmişdir. Bu fakt sahibkarlığın inkişaf etdirilməsinin yüksək templərini və bu inkişafdan ötrü münbit şəraitin mövcudluğunu sübut edir.

Ölkə rəhbərliyinin vətəndaşların sosial vəziyyətinin yaxşılaşdırılmasına yönəltdiyi tədbirlər Biləsuvarda da uğurla həyata keçirilir. Məşğulluğun təmin olunması, sosial müdafiənin gücləndirilməsi, pensiya və müavinətlərin vaxtında ödənilməsi, aztəminatlı ailələrə sosial yardımların verilməsi əvvəlki vaxtlara nisbətən daha yaxşı təşkil edilmişdir. Cari ilin doqquz ayında 1120 ailənin hər birinə orta hesabla 168 manat olmaqla ünvanlı sosial yardım ödənilmişdir.

Rayon icra hakimiyyətinin həyata keçirdiyi tədbirlər nəticəsində xidmət sahələrində işlərin həcmi və keyfiyyəti xeyli yüksəldilmişdir. Nəqliyyatda yük və sərnişin daşınması nəzərəçarpacaq dərəcədə artmışdır. 9 ay ərzində 135 kilometr qaz kəməri çəkilmiş, beləliklə, rayonun bütün yaşayış məntəqələrinin mavi yanacaqla təminatı başa çatdırılmışdır. Elektrik enerjisi ilə təchizat yaxşılaşmış, 21 ədəd yeni transformator quraşdırılmış, 18 kilometr SİP kabeli, 750 metr hava verilişi naqili çəkilmiş, 766 elektrik dirəyi quraşdırılmışdır.

Hazırda Biləsuvarda 36 ümumtəhsil, 3 məktəbdənkənar təlim-tərbiyə müəssisəsi fəaliyyət göstərir. Ötən tədris ilində ümumtəhsil məktəblərini 938 nəfər gənc bitirmiş, onlardan 200 nəfəri tələbə adını qazanmışdır. 41 nəfər 500, 21 nəfər 600-dən yuxarı bal toplamağa nail olmuşdur. Məktəblərin maddi-texniki bazası əvvəlki illərə nisbətən xeyli möhkəmləndirilmiş, geniş miqyasda təmir işləri aparılmışdır. Son illərdə rayonda 13 yeni məktəb binası istifadəyə verilmişdir. Bir sıra təhsil ocaqlarında istilik sistemləri yenidən qurulmuş, şagirdlərin istifadəsinə 470 kompüter dəsti, kifayət qədər tədris avadanlığı və inventar verilmişdir.




Əhaliyə mərkəzi xəstəxana, uşaq xəstəxanası, kənd sahə xəstəxanaları, həkim ambulatoriyaları, feldşer-mama məntəqələri yüksək səhiyyə xidməti göstərir. Son vaxtlar, xüsusilə ailə planlaşdırılmasına, ana və uşaq mühafizəsinə diqqət artırılmış, yoluxucu xəstəliklərə qarşı intensiv profilaktika tədbirləri həyata keçirilmiş, sanitar-gigiyenik durumun sabit saxlanılması sahəsində zəruri tədbirlər görülmüşdür. Ölkə başçısının xüsusi tapşırığı ilə fevral-may aylarında 83375 nəfər sakin tibbi müayinədən keçmişdir. Hazırda Prezident İlham Əliyevin sərəncamına əsasən Mərkəzi Xəstəxanada yenidənqurma işləri aparılır. Kənd səhiyyə ocaqlarında xeyli təmir işləri görülmüşdür.

Rayonda mədəniyyət müəssisələrinin işi canlandırılmış, gənclərin asudə vaxtının mənalı və maraqlı keçməsi üçün lazımi şərait yaradılmışdır. Tarix və mədəniyyət abidələrinin qorunub saxlanılması, maddi-mənəvi irsin mühafizəsindən ötrü bütün imkanlar səfərbər edilmişdir. Heydər Əliyev Mərkəzi mədəni-kütləvi tədbirlərin keçirildiyi əsas məkana çevrilmişdir. Son vaxtlar gənclərin bədən tərbiyəsi və idmanla əhatə olunmasında, onların vətənpərvərlik ruhunda tərbiyəsində yaxşı göstəricilər əldə olunmuşdur. İndi rayonda 5500 nəfərdən artıq gənc və yeniyetmə müntəzəm olaraq idmanın müxtəlif növləri ilə məşğul olur.

Yığıncaq iştirakçıları yekdilliklə vurğuladılar ki, bu gün rayonda həyata keçirilən tədbirlər ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi siyasətin məntiqi davamıdır. Məhz buna görə də tam əminliklə söyləmək olar ki, biləsuvarlılar 2015-ci ili layiqli nəticələrlə başa vuracaq, qarşıdakı illərdə də dövlət tapşırıqlarının həyata keçirilməsində öz sözlərini deyəcəklər.

**Sabir MUSTAFAYEV,**
**“Respublika”.**